AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 63

Bakı şəhəri "27" sentyabr 2016 il

**"Rezidenturada həkim-mütəxəssislərin hazırlığının təşkil edilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 5.1-ci bəndinə uyğun olaraq rezidenturada həkim-mütəxəssislərin hazırlığının təşkil edilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin 31.08.2016-cı il tarixli 8/Q nömrəli əmri ilə təsdiq edilmiş siyahı üzrə 2016/2017-ci tədris ili üçün rezidenturaya qəbul olunmuş və qeydiyyatdan keçmiş rezidentlərin hazırlığına 01.10.2016-cı il tarixindən başlansın (siyahı əlavə olunur).

2. Rezidenturada həkim-mütəxəssis hazırlığı aparan klinik bazaların rəhbərlərinə tapşırılsın:

2.1. rezidenturaya qəbul olunmuş rezidentlərin peşə hazırlığı müvafiq ixtisas üzrə təhsil proqramlarına uyğun olaraq, hər təhsil ilinin əvvəlində təsdiq olunan fərdi iş planları əsasında aparılsın;

2.2. rezidentlərin müvafiq ixtisas üzrə peşə hazırlığını təmin etmək üçün "Rezidentin kuratoru haqqında əsasnaməyə" uyğun olaraq kuratorlar təyin edilsin;

2.3. rəhbərlik etdikləri müəssisələrdə rezidentlərin hazırlığının yüksək səviyyədə aparılmasına daimi nəzarət həyata keçirilsin.

3. Rezidenturada hazırlığın təşkilinə nəzarət və metodik rəhbərlik Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın.

4. Əmrin icrasına nəzarət aparatın rəhbəri Z.Mustafayevaya həvalə edilsin.

Oqtay Şirəliyev